# Yeni Kaledoniyadakı etirazlar Fransa əsarətindəki digər ərazilərə də yayıla bilər

**"Fransa müstəmləkəçilik siyasəti ilə elə ilk növbədə öz başına bəla açır, dünyada nüfuzu hər keçən gün sıfıra yaxınlaşır. Makron hakimiyyəti Yeni Kaledoniyada pik həddə çatan gərginliyi yumşaltmaq üçün hücum strategiyasını seçib. Lakin unudur ki, müasir dövrdə bu cür metodlarla hansısa xalqı susdurmaq mümkün deyil. Keçmiş müstəmləkə ərazilərinə nəzarəti saxlamaq istəyən Paris beynəlxalq hüququn norma və prinsiplərini pozur".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat qeyd edib ki, uzun illərdir hüquqları tapdalanan yeni koledoniyalılar etirazlara başlayıblar: "Vəziyyət gərgindir, polislə etirazçılar arasında toqquşmalar yaşanır. Zorakılıq halları baş alıb gedir. 1873-cü ildən bəri yerli kanak xalqını əsarəti altında saxlayan Fransa bütün demokratik və insani dəyərləri heçə sayır. Yelisey sarayı etirazlara, düçar olduğu uğursuzluqlara rəğmən müstəmləkəçilik siyasətindən əl çəkmir".

Deputatın sözlərinə görə, kolonializm siyasətini ənənəvi hala çevirən Fransa son dövrlər Azərbaycan tərəfindən ifşa olunub. Bu ölkənin iç üzü hər keçən gün dünyaya daha yaxşı bəlli olur. Bunun nəticəsidir ki, özünü demokratiyanın beşiyi hesab edən Fransa digər regionlarda olduğu kimi, Cənubi Qafqazda da problemlər yaşayır. Daim demokratiyadan və insan hüquqlarından dəm vuran Paris Cənubi Qafqazda hərbi mövcudluğuna nail olmaq üçün işğalçı Ermənistanı dəstəkləyir. Əslində, hər ikisinin xislətində cinayətkarlıq olduğuna görə, Ermənistanın "böyük bacı"sı Fransanın belə riyakar davranışları təəccüblü deyil.

"Yelisey sarayı öz maraqlarını təmin etmək üçün ağlasığmaz cinayətlər törədir. Təkcə Yeni Kaledoniya üzərində deyil, Ermənistan üzərində də eyni rolu oynayır. Ötən ay Bakıda səfərdə olan Yeni Kaledoniyanın rəsmi nümayəndəsi Omayra Naisselinin də dediyi kimi, Yeni Kaledoniya xalqının öz müqəddəratını özünün təyin etməsi və müstəqil olması ilə razılaşa bilməyən Fransa Ermənistanı da kaledoniyalaşdırmağa çalışır. Bu bir daha sübut edir ki, Makron hakimiyyəti Fransanın tarixi boyunca yürütdüyü kolonializm siyasətini Cənubi Qafqaza da daşımaq niyyətindədir", - deyə müsahibimiz əlavə edib.

Fazil Mustafa bildirib ki, bütün bu addımlar faydasızdır: "Fransa zor gücünə müstəmləkəsində saxladığı xalqların hüquqlarını da qorumalıdır. Baş verənlərdən də aydın görünür ki, Fransanın müstəmləkəçilik siyasəti onsuz da iflasa uğrayıb. Yəni hazırkı strategiya, atılan addımlar fransızların hansısa problemini həll etməyəcək. Əksinə, bu, Yeni Koledoniyada daha böyük müqavimətin formalaşmasına səbəb ola, etiraz dalğasını digər keçmiş müstəmləkələrə də yaya bilər".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 17 may, № 102.- S.10.